# Müsbət tendensiyaya və sülhə doğru gedirik

## Rəsmi Bakı bütün görüşlərdə barış çağırışlarına sadiqliyini nümayiş etdirir



"Müasir dövrdə qloballaşma şəraitində dünyanın bir sıra bölgələrində mürəkkəb proseslər baş verir. Beynəlxalq ictimaiyyətin üzləşdiyi gərginlik, qarşıdurma, müharibə və iqtisadi böhranlar fonunda ölkəmizdə sabitliyin hökm sürməsi Azərbaycanın haqlı, ədalətli mövqeyinin nəticəsidir".

Bu sözləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib. Deputat bildirib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycan bu gün dünyanın ən sabit və təhlükəsiz dövlətlərindən biridir. Dünya ölkələri ilə bərabərhüquqlu və qarşılıqlı etimada əsaslanan münasibətlərin qurulması, beynəlxalq təşkilatlarla səmərəli əlaqələrin yaradılması, yeni tərəfdaşların tapılması və yüksəksəviyyəli əməkdaşlığın həyata keçirilməsi, mehriban qonşuluq siyasətinin formalaşdırılması, beynəlxalq ədalətin təmin olunması Azərbaycanın yürütdüyü xarici siyasətin əsas istiqamətləridir.

Ötən ilin sentyabrında Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini tam şəkildə bərpa etdiyini xatırladan K.Bayramov qeyd edib ki, 44 günlük Vətən müharibəsi başa çatdıqdan sonra dövlətimiz Ermənistanla sülh sazişi ilə bağlı danışıqlara başlamaq təşəbbüsünü irəli sürüb və baza prinsiplərini, sülh sazişinin layihəsini hazırlayıb. "Bəzi dövlətlər Ermənistana dəstək verərək Cənubi Qafqazda sülhü əngəlləməyə çalışsalar da, hazırda iki ölkə arasında vasitəçilərsiz danışıqlar gedir və bu danışıqlar təkliflər layihəsi üzərində aparılır. İndi müsbət tendensiyaya və sülhə doğru gedirik, artıq sərhədlərin delimitasiya və demarkasiyası prosesi başlayıb. Bu ilin aprelin 19-da Azərbaycan və Ermənistan arasında sərhəddə Baş nazir müavinləri Şahin Mustafayevin və Mqer Qriqoryanın sədrliyi ilə Komissiyanın səkkizinci görüşü keçirilib. Görüş zamanı onlar bəzi məsələlər barədə razılığa gəliblər. Delimitasiya prosesinin ilkin mərhələsində tərəflər sərhəd xəttinin ayrı-ayrı hissələrinin keçmiş Sovet İttifaqı çərçivəsində onun süqutu dövründə mövcud olduğu hüquqi cəhətdən əsaslandırılmış respublikalararası sərhədə uyğun olaraq Bağanis-Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı yaşayış məntəqələri arasından keçməsini razılaşdırıblar. Eyni zamanda digər bir razılaşmaya əsasən, onlar delimitasiya prosesində 1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslanacaqlar. Tərəflər, həmçinin həmin baza prinsipini Əsasnamə layihəsində təsbit etmək barədə razılığa gəliblər", - deyə o əlavə edib.

Deputat diqqətə çatdırıb ki, əldə edilən razılaşmaların nəticəsində aprelin 23-də Azərbaycan ilə Ermənistan arasında sərhəddə yerdəki geodeziya ölçmələrinə əsaslanaraq koordinatların dəqiqləşdirilməsi prosesi çərçivəsində ilk sərhəd dirəyi quraşdırılıb. Quraşdırılan dirəklərin sayı sərhəddə koordinatların dəqiqləşdirilməsi işləri çərçivəsində aparılan geodeziya ölçmələri əsasında artaraq 40-a çatıb. Bu da o deməkdir ki, iki ildir davam edən delimitasiya-demarkasiya məsələsi üzrə keçirilən görüşlər artıq öz müsbət nəticələrini verir.

K.Bayramov xatırladıb ki, mayın 10-da Azərbaycanın XİN rəhbəri Ceyhun Bayramov ilə erməni həmkarı arasında Qazaxıstanın Almatı şəhərində görüş keçiriləcək: "Göründüyü kimi, Ermənistanın və Avropadakı havadarlarının ara qarışdırmasına baxmayaraq, rəsmi Bakı bütün görüş və toplantılarda sülh çağırışlarına sadiqliyini nümayiş etdirir. Azərbaycan qalib ölkə olmasına baxmayaraq, regional sabitliyin, təhlükəsizliyin təmini məqsədilə İrəvana sülh, əməkdaşlıq təklif edir".

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 9 may, № 95.- S.8.